# Qəbələ Azərbaycanın ikinci turizm mərkəzidir

(Əvvəli ötən sayımızda).

Respublikanın ən yüksək zirvəsi, yeni hündürlüyü 4466 metr olan Bazardüzü Qəbələdə yerləşir. İqlimi aşağı hissədə qışı quraq keçən mülayim isti, yüksək dağlıqda isə soyuq və rütubətlidir. Dəmiraparançay, Türyançay və onların qolları Tikanlıçay, Bum çay, Vəndam və sair kimi çayları, Mucux, Yeddi gözəl və digər adda şəlaləleri var. 60 min hektar sahə meşə ilə örtülüdür və meşələr əsasən fıstıq, palıd, vələs, ardıc ağaclarından ibarətdir. Mineral, qeyri-mineral bulaqları, Çuxur Qəbələ kəndində yerləşən Qədim Qəbələ Şəhərinin qalıqları, rayonun müxtəlif yerlərində daş Kurqanlar (e.ə. III-I minillik), Həzrə kəndindəki türbələr kompleksi (XIV-XV əsrlər), Nic qəsəbəsində Nekropol (antik dövr) və sair bu kimi abidələri də çox maraqlıdır. Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi və başqaları öz zəngin materialları ilə diqqəti cəlb edir. Qəbələnin hansı daşını tərpətsən, burada hara ayaq bassan, orada minillik tarixin izləri ilə rastlaşarsan. Nazirlər Kabinetinin qərarı ilə 93 tarixi mədəniyyət abidəsi dövlət mühafizəsinə götürülmüşdür. Onlardan biri Qədim Qəbələ şəhərinin qalıqları dünya əhəmiyyətli arxeoloji abidələr siyahısına aiddir.

Həmsöhbətim bildirdi ki, belə faktların sayını artırmaq da olar. Yəni Qəbələ turizm üçün çox əlverişli məkanda yerləşir və iqlimi də, təbiəti də ürəkləri oxşayan bir diyardır və onun turistləri düşündürən, heyrətləndirən, ürəklərini riqqətə gətirən çox maraqlı, zəngin bazası da var və bu bazanı qoruyub saxlayan, daha da artıran insanları da, müvafiq qurumları da. Yeri gəlmişkən qeyd edək ki, bu gün Qəbələdə turizm kimi çox əlverişli bir sahənin daha da inkişaf etdirilməsinə Qəbələ Rayon İcra Hakimiyyəti tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Yuxarıda adını çəkdiyimiz, Turizm



İnformasiya Mərkəzi bu işlərin bir nömrəli icraçısıdır. Mərkəz tərəfindən yalnız Qəbələ rayonunda deyil, həmçinin fəaliyyət dairəsində olan regionlar haqqında da iş aparılır. Məqsəd daxili turizmi inkişaf etdirmək, yerli və xarici turistlərin bölgəyə cəlb olunması, informasiya texnologiyaları vasitəsilə ölkəmizin bu regionunun turizm potensialı haqqında məlumatları dünyanın hər yerinə çatdırmaqdır.

Hər il iyunun 15-dən Qəbələ rayonunda turizm mövsümünə rəsmi start verilir. Amma maraq və heyranlıq o qədər çoxalıb ki, may ayından rayona turistlərin axınına başlanır. Onun əsrarəngiz təbiətinin qoynunda dincəlmək, Azərbaycan mətbəxinin nemətlərindən dadmaq üçün, Qəbələnin minilliklərin sorağını verən tarix və mədəniyyət abidələrini öyrənmək istəyən turistlərin sayı ilbəil artır. Müsahibim söhbət əsnasında vurğuladı ki, son illərdə Qəbələyə gələn əcnəbi turistlərin sayı da artmaqda davam edir. Onlar əsasən Ərəb və Avropa dövlətlərindən İran, Türkiyə, Rusiya, Hindistan, Pakistan və digər ölkələrdəndir. Rəqəmlərin "dili" ilə desək, Qəbələyə 2015-ci ildə 67,200 yerli, 13,000 əcnəbi və cəmi 80 min 200 nəfər turist gəlmişdirsə, 2016-cı ildə onların ümumi sayı 161014 nəfərə çatmışdır ki, onun da 63,333 nəfərini əcnəbi turistlər təşkil etmişdir. 2017-ci ilin sonuna kimi 250 min turist Qəbələnin qonağı olmuşdur ki, onların da 140 min nəfərini xaricilər təşkil etmişdir. Rəqəmlərin özü Qəbələnin şöhrətinin, ad-sanının dünyanı gəzib dolaşdığını deyir. Bir elə adamı qarşılamaq, rayonun sosial, iqtisadi, mədəni həyatı ilə tanış etmək, əlbəttə, müvafiq qurumlardan, turizm, informasiya mərkəzindən, rayonun rəhbər adamlarından daha böyük və məhsuldar fəallıq tələb edir və qeyd edək ki, bütün bunların hamısı layiqincə həyata keçirilir. Bu gün Qəbələdə 100-dən artıq turizm obyekti fəaliyyət göstərir. Son illərdə rayonda turizm obyektlərinin sayı 5 dəfədən çox artaraq 19-a çatmışdır. Gün ərzində həmin obyektlərdə 2500-ə yaxın qonağa milli, türk və Avropa yeməklərinin daxil olduğu restoran xidmətləri müasir otelçilik, meşə gəzintisi, atla gəzinti, balıq ovu, göldə qayıqla gəzinti, görməli yerlərə, tarixi abidələrə gəzinti xidmətləri göstərilir. Turistlər bunlarla yanaşı, "Qəbələnd" istirahət və əyləncə mərkəzinin, otellərin nəzdindəki fitnes sağlamlıq mərkəzlərinin, sauna, müasir salonlu türk hamamının, eyni zamanda, diskotekaların xidmətindən də səmərəli istifadə edə bilirlər.



Turizmin inkişafından söhbət açanda bir faktı da xatırlamaq lazımdır. Bu sahəyə qayğının artırılması özəl sektorda turizm istirahət komplekslərinin sayının artırılmasına da sanballı təkan olur. "Qafqaz Resort", "Qafqaz Riverside" , "Qafqaz Tufandağ Monntain Resort", "Qafqaz Sport", "Qafqaz Karvansaray", "Chenot Palace", "Qafqaz City", "Qafqaz Yeddi gözəl" hotelləri, "Qəbələnd" istirahət və əyləncə mərkəzi, "Tufandağ" qış-yay turizm istirahət kompleksi, "Sərin meşə", "Duyma", "Karvan", "Yeddi gözəl", "Sahil", "Selbasar", "Ay işığı", "Xanlar", "Çənlibel", "Soyuq bulaq" otel və istirahət mərkəzləri də son illərdə turizm obyektlərinin sırasına qoşulmuşdur. Bəli, qədim Qəbələ öz tarixini yaşada-yaşada, onu dünyaya tanıda-tanıda günü-gündən gözəlləşir və gözəlləşdikcə də sanki başdan-başa cavanlaşır. İllərin əks-sədasını sinəsində yaşada-yaşada ürəklərdə əbədiləşən qocalıqla, bu gün daha uca zirvəyə inamlı və ilhamlı yürüşdə olan gəncliyin vəhdətinin əzəmətidir elə Qəbələni dünya səviyyəsində ağızdan-ağıza, ürəkdən-ürəyə gəzdirən. Qocalıqla gəncliyin inamlı addımlarının təntənəsidir ki, bu gün Qəbələ bir çox dünya səviyyəli tədbirlərə öz mehriban, səmimi, qonaqpərvər qucağını açır. 2009-cu ildən başlayaraq hər il Qəbələ şəhərində beynəlxalq musiqi festivalının keçirilməsi və bu festival çərçivəsində təşkil olunan gənc pianoçuların beynəlxalq müsabiqəsi muğam, klassik, kamera, caz vokal musiqisi konsertlərinin təşkili, dünya əhəmiyyətli bu tədbirlərdə bir çox ölkələrin tanınmış musiqiçilərinin, simfonik və filarmoniya orkestrlərinin çıxışları rayona gələn xarici turistlərin axınına təkan verir.

Möhtəşəm mürəbbə festivalına da artıq 5 ildir Qəbələ ev sahibliyi edir. Mürəbbə festivalı sanki dünya şöhrətli Qəbələni dünya xalqlarına daha da şirinləşdirir, doğmalaşdırır. 2016-cı ildə 10 xarici ölkədən 30 şəhər və rayondan şirinlik festivalına nümayəndə gəlmişdisə, 2017-ci ildə 22 ölkədən 44 şəhər və rayondan olan şirniyyatçılar Qəbələnin qonağı oldular. Bu cür faktlar çoxdur və onların hər birinin Qəbələdə turizmin inkişafında böyük rolu var. Turizmin inkişafı rayonun iqtisadiyyatının gücləndirilməsinə, qəbələlilərin ailə büdcələrinin möhkəmlənməsinə də böyük təsir göstərir.

Qəbələ Turizm və İnformasiya Mərkəzinin direktoru söhbət zamanı ürəkaçan bu faktların daha da artırılması üçün rayonda tarixi, etnoqrafik, piyada, dağ, din, kənd, məcra turizminin, eyni zamanda, ekoturizmin inkişafına da meydan verməsi istiqamətində işlər görülməsinin daha yaxşı nəticələr verə biləcəyini qeyd etdi. Dedi ki, yerli və xarici turistlərin məlumatlandırılması məqsədilə mərkəzin kollektivi bütün günləri fəaliyyət göstərir, mərkəz tərəfindən müxtəlif dillərdə reklam-çap məhsulları hazırlanır, turistlərə informasiya verilməsi ilə əlaqədar internet, telefon və əməkdaşlar tərəfindən ofisimizdə birbaşa xidmət olunur.

**Söhbəti hazırladı:**
**Rasim AMANOV,**
**"Respublika".**

# Vilnüs şəhərində Qəbələ rayonunun təqdimatı keçirilib

***Litvanın paytaxtı Vilnüs şəhərində Qəbələ rayonunun təqdimatı keçirilib.***

***Tədbir Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və ölkəmizin Litvadakı səfirliyinin birgə təşkilatçılığı ilə gerçəkləşib.***



Təqdimat mərasimində Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları, xarici ölkələrin Litvada yerləşən səfirliklərinin, yerli turizm şirkətlərinin və digər təşkilatların nümayəndələri iştirak edib.

Mərasimdə Qəbələ rayonunun müasir həyatı, tarixi abidələri və turizm potensialından bəhs edən videoçarx nümayiş olunub.

Tədbir İştirakçıları həmçinin Qəbələ sənətkarlarının əl işlərindən ibarət tətbiqi sənət sərgisinə, milli mətbəx nümunələrinə baxıblar.

Tədbirdə Azərbaycan bəstəkarlarından Qara Qarayevin, Fikrət Əmirovun və digərlərinin əsərləri, eləcə də xalq mahnıları səsləndirilib.

**«Qəbələ»**

# "Fəaliyyətin yeni formatları" adlı təlim təşkil olunmuşdur

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Qəbələ rayonu üzrə pilot layihəsi çərçivəsində Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz tərəfindən Qəbələ Mədəniyyət Mərkəzində kitabxana əməkdaşları üçün oxucularla işin yeni formatlarda təşkili mövzusunda təlim keçirilmişdir.***

Təlimdə mərkəzin əməkdaşları ilə yanaşı, Bakı Dövlət Universitetinin mütəxəssisləri də iştirak etmişdir.

Tədbirdə Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin direktoru Asif Usubəliyev, mərkəzin şöbə müdirləri və digər



mütəxəssislər geniş məruzə etmişlər.

"Kitabxanalarda müasir xidmətlərin təşkilinə dair tələblər", "Kitabxanaçıların peşə standartı", "Oxucularla iş və vaxtın idarə olunması", "Müasir şəraitdə kitab təbliğinin metodları" və digər aktual mövzularda məruzələr dinləndikdən sonra təlim sual-cavab formatında davam etdirilmişdir.

**Səfa ASLANOV,**
**"Qəbələ"**

# Azərbaycan kinosu -120

***MKS-nin mərkəzi kitabxanasında kino sənətimizin 120 illiyinə həsr olunan tədbir keçirilib.Tədbirdə kitabxananın fəal oxucuları iştirak ediblər.***

Mərkəzi kitabxananın direktoru Anar Rüstəmli tədbir iştirakçılarına Azərbaycanda kino sənətinin yaranma tarixi, keçdiyi şərəfli yol, kinemaoqrafiyamızın səssiz dövrü və milli kinomuzun bu günü haqqında geniş məlumat verib.

Kitabxananın əməkdaşları Azərbaycanda kino sənətinin müxtəlif dövrlərində fərqli janrlarda yaranan ekran əsərlərindən bəhs edən maraqlı məruzələr ediblər.

Tədbirin sonunda "Azərbaycan kinosu- 120" adlı videoçarx nümayiş etdirilib.

**«Qəbələ»**